Məhəmməd Füzuli – 530

# Füzulinin "usanmaz sevda" dünyası

**Xalqımızın bədii-estetik düşüncə tərzində poeziyanın danılmaz rolu var. Klassik şeir ənənəsi bizim sivil xalq kimi formalaşmağımıza da sanballı təsir edib. Bu mənada görkəmli fikir adamlarımız daim Məhəmməd Füzuli yaradıcılığından bəhrələniblər.**



XX əsrin əvvəlində Füzuliyə bənzərsiz bir qayıdış baş verdi. Mirzə Ələkbər Sabir Füzuli lirikasına nəzirə şəklində satira lövhələri yaratdı. Şair "Bakı pəhləvanlarına" satirasını Füzulinin "Könlüm açılır zülfü pərişanını görcək" qəzəlindən bəhrələnərək yazmışdı. Füzuli gözəl qarşısında ehtiramını bildirirsə, Sabir qan tökməyi "hünər" sayanları qamçılayırdı:

*Düşdün lotuluq məşqinə, islamə uyuşma,*
*Öldür neredə olsa müsəlmanını görcək.*

Füzuli bizim ümmət şairimizdir. Sabir isə bu şeir parçasında müsəlman deyərkən xalqı nəzərdə tuturdu. O, xalqın çatışmayan cəhətlərini Füzuli şeirinin dalğasıyla əks etdirirdi. Sabir Füzulinin "Əql yar olsaydı, tərki-eşqi-yar etməzmidim? İxtiyar olsaydı, rahət ixtiyar etməzmidim?" mətləli qəzəlini Güney Azərbaycanda gedən azadlıq hərəkatına münasibət bildirərkən dekonstruksiya etmişdi. Sabir azadlığın düşmənlərini Füzuli estetikasının təsiri ilə qamçılayırdı.

Məhəmməd Hadi də yeri gəldikcə Füzulidən bəhrələnirdi. O, Füzulinin lirik "mən"ini XX əsrin əvvəlinə gətirərək fikrini çatdırırdı. Füzuli qəmin səbəbini yer həsrətində görürdü. M.Hadiyə görə isə qəmin səbəbi azadlığın olmamasıdır. M.Hadi öz "Təraneyi-Milli"sində Füzulinin məşhur "Məni candan usandırdı" qəzəlindən belə təsirlənirdi:

*Çırağı-müzlimi-ümmid*
*işıqlanmazmı, yanmazmı?*
*Siyəhru-bəxtimiz ğədrü*
*cəfasından utanmazmı?*
*Məzari-cəhldə xabidəyi-*
*qəflət oyanmazmı?*
*Maarif qönçəsilə gülşəni-*
*ümmət donmazmı?!*
*Usandı xamələr-təhrirdən,*
*millət usanmazmı?*
*Açıldı sübhü-sadiq,*
*xabdən millət oyanmazmı?*

Şeiri oxuyan kimi, Füzulinin ölməz ruhunu duyuruq. Amma M.Hadi burada böyük şairi yamsılamır, ondan bəhrələnərək yeni söz demək cəhdini ortaya qoyur. Füzuli yalnız lirik məninin qara bəxtini düşünürsə, Hadi millətin qara bəxtini düşünür və bunun səbəbini maarifsizlikdə görür.

Hüseyn Cavid isə "Şeyda" pyesində Füzuli məktəbindən yararlanmışdı. O da məsləkdaşı Hadi kimi, "Məni candan usandırdı" şeirindən bəhrələnirdi. Füzuli öz şeydasına belə qiymət vermişdi:

*Füzuli rindü-şeydadır,*
*həmişə xəlqə rüsvadır,*
*Sorun kim, bu nə sevdadır,*
*bu sevdadan usanmazmı?*

Lakin şeydalar arasında ciddi fərq var. Cavidin Şeydası xalqın içindən xaliqə doğru getmək istəyir. Şeyda Roza adlı qızı sevsə də, ictimai məsələlərdən kənarda durmur, siyasi mübarizəyə qoşulur. Demək ki, Füzuli məktəbi istiqlalımızın elanı ərəfəsində də bizə yardım göstərmişdir.

Üzeyir Hacıbəyli isə, sözün əsl mənasında, inqilab edib. O, Füzulinin "Leyli və Məcnun" poemasının motivləri əsasında təkcə Azərbaycanda deyil, həm də İslam dünyasında ilk operanı yazıb. Ötən əsrin əvvəlində qadağalarla dolu Şərq aləmində opera yazmağın özü də cəsarət tələb edirdi. Lakin Üzeyir bəy Füzuli dühasına sığınaraq 23 yaşında bu addımı atıb və bununla da Azərbaycanın ənənələrə bağlı modern mədəniyyətə qoşula biləcəyini sübut edib.

Göründüyü kimi, dahi şairimiz Məhəmməd Füzuli Azərbaycan lirikasının şah sütunudur. Bu sütuna "toxunmaq" istəyənlər də olub. Ötən əsrin 30-cu illərində buna cəhd edilәndə Mikayıl Müşfiq ədəbi ədabazlara qəti etirazını belə bildirmişdi: "Özümüzü öyməyəlim, Füzuliyə dəyməyəlim".

Bəli, ciddi sənətin, böyük ədəbiyyatın mədəniyyətə mütləq davamlı təsiri olur. Cəsarətlə deyə bilərik ki, 530 yaşını qeyd etdiyimiz Məhəmməd Füzuli müasir Azərbaycan mədəniyyətinin inkişafına bu gün də ustadlıq təsirini göstərməkdədir.

***Ceyhun MİRZƏLİ,***
***kulturoloq***